# Şabranda tənqidçi-ədəbiyyatşünas Elnarə Akimova ilə görüş keçirilib



Noyabrın 11-də Şabran rayonu Poeziya Evində tanınmış tənqidçi-ədəbiyyatşünas, filologiya elmləri doktoru Elnarə Akimova ilə görüş keçirildi. Görüşdə Poeziya Evinin, təhsil və mədəniyyət müəssisələrinin əməkdaşları, rayonda yaşayan, şair və yazıçılar, Şabran Rayon Tarixi Dövlət Qoruğunun nümayəndələri, yaradıcı gənclər iştirak edib.

Tədbiri Poeziya Evinin direktoru, şair Aybəniz Əliyar açıb. Aybəniz xanım qonağı salamladıqdan sonra rayonda elm və ədəbiyyat adamları ilə görüşlərin təşkilinin mühüm əhəmiyyət daşıdığını bildirib. Belə vacib görüşlərin qələm adamları arasında mənəvi körpü rolu oynadığını, onları daha sıx şəkildə birləşdirdiyini qeyd edib. Daha sonra Elnarə Akimovanın mətnlərindən, ədəbi mühitdə daşıdığı missiyadan, eləcə də "Ədəbiyyat qəzeti"ndəki yaradıcı fəaliyyətindən bəhs edən Aybəniz xanım sözü qonağa verib. Elnarə Akimova rayon ictimaiyyətini, hörmətli söz adamlarını salamladıqdan sonra ədəbiyyatın müxtəlif yaradıcılıq problemləri haqqında düşüncələrini bölüşüb, Qarabağ savaşının, yaşadığımız faciələrin, nəhayət, 44 günlük müharibənin ədəbiyyatımızda işlənmə rakursuna diqqət yönəldib. Xüsusilə, Zəfər amilinə köklənən alim ədəbiyyatın əsas məramının həm də bu mövzunu layiqincə ədəbiyyatlaşdırmaq olduğunu vurğulayıb.

Görüşdə çıxış edən Aydın Tağıyev, Qafar Süleyman, Zakir Bayramlı və digər yazarlar çağdaş ədəbiyyat, poeziya, sənətlə bağlı fikirlərini bölüşüb, şeirlərini səsləndiriblər.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 19 noyabr.- S. 21.**